**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) layihəsi "Association Make a Better World" müsabiqəsində qalib oldu

**No: 09/03/07**
**23.06.2009**

Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) təsisçisi olan Azərbaycan Türkiyə İş Adamları Birliyinin Amerika Assosiasiyaları Rəhbərləri Cəmiyyətinin (American Society of Association Executives – ASAE) hər il keçirdiyi "Association Make a Better World" müsabiqəsinə təqdim etdiyi "ATAF. Avrasiyada Sosial və İqtisadi İnteqrasiya Modeli olaraq Regional Sülh naminə Birgə Fəaliyyət" adlı layihəsi HONORABLE MENTION AWARD WINNER nominasiyasında qalib elan edilmişdir. ATAF-ın bu layihəsi Qafqaz xalqlarının sülh şəraitində yaşamasına, regionda sosial inteqrasiyanın inkişafı və əhalinin rifahının yüksəldilməsinə ən çox töhfə verə biləcək təşəbbüs olaraq qiymətləndirilmişdir.

Bu təşəbbüs ASAE tərəfindən həyata keçirilən proqramda iştirak edən namizədə təmsil etdiyi təşkilatı tanıtmaq imkanı yaradır. Təqdim edilən uğurlu layihə təşkilata müxtəlif kateqoriyalarda üzv olan sənaye partnyorları, məsləhətçi, eləcə də icma üzvü statusuna malik münsiflər heyəti tərəfindən müəyyən edilir. Qaliblər 15-18 avqust 2009-cu ildə "2009 Annual Meeting & Exposition" adlı tədbirə dəvət almaqla *Associations Make a Better World*-ə bir illik pulsuz üzv olmaq, eləcə də mükafatı Kanadanın Toronto şəhərində almaq imkanı qazanır.

2009-cu il üzrə "Association Make a Better World" müsabiqəsinin digər qalibləri olaraq ABŞ-ı təmsil edən NRECA Beynəlxalq Fondu (NRECA International Foundation), İxtisaslı Dəyirmançılar Beynəlxalq Assosiasiyası (International Association of Operative Millers), Tibbi Təcili Yardım Cəmiyyəti (Society of Critical Care Medicine); Perunu təmsil edən Latın Amerikası Maliyyə İnstitutlarının İnkişafı

Assosiasiyası (ALIDE); İndoneziyanı təmsil edən Korporativ Direktorluq üzrə İndonaziya İnstitutu (IICD) müəyyən edilmişlər.

Qeyd edək ki, ASAE (www.asaecenter.org) dünya üzrə 287 milyon nəfəri əhatə edən 10 mindən artıq assosiasiya ilə əməkdaşlıq edir.

**Qısa tarixi arayış**

15 may 2006-cı ildə Türkiyə Tarix Qurumu, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Bakı Dövlət Universiteti və ATİB-in təşkilatçılığı ilə BDU-da "Azərbaycan və Türkiyə Tarixində Erməni Məsələsi" adlı konfrans təşkil edilmişdi. Konfransın yekununda adıçəkilən 4 təşkilat tərəfindən Bakı Bəyannaməsi qəbul edilmiş və Dördtərəfli Əməkdaşlıq Protokolu imzalanmışdır. Adıçəkilən qurumlar bu sənədlər əsasında iki ölkənin ümumi məsələsi olan "Azərbaycan və Türkiyə tarixində erməni problemi" üzrə sənədlərə əsaslanan həqiqətlərin müəyyən edilməsi və ictimaiyyətin məlumatlandırılmasını təmin etmək məqsədilə birgə fəaliyyət göstərməyi qərara almışdılar. Dördtərəfli Əməkdaşlıq Protokolunun həyata keçirilməsi üçün yaradılan Koordinasiya Şurasının 27 fevral 2007-ci ildə Ankarada keçirilən iclasda işlərin daha sistemli şəkildə həyata keçirilməsi üçün qeyri hökumət təşkilatının, yəni Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun yaradılması qərara alındı.

Təşəbbüsün məqsədi Azərbaycan və Türkiyə tarixinin araşdırılması və ortaq problemlərin müəyyən edilməsinə köməklik göstərilməsi, onların həlli yollarının müəyyən edilməsi və təkliflər hazırlanması; regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə verməkdən ibarətdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**